

# Torpağı Vətən, Vətəni bütöv edənlər



**Torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası naminə aparılmış Vətən müharibəsində yüzlərlə ağdamlı gənc qəhrəmanlıq və fədakarlıq nümayiş etdirib, öz canını Vətənə fəda edib. Birinci Qarabağ müharibəsi dövründə Ağdam sakinləri az qala yalın əllə, primitiv silahlarla torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərə atılıb. Həmin vaxt torpaqlarımızın müdafiəsi və dövlətçilik uğrunda 6 mindən çox insan şəhid olub, minlərlə ağdamlı əlil olub. Vətən müharibəsində qəhrəmanlıqla həlak olan Anar Sərxan oğlu Yusifov doğulub boya-başa çatdığı torpağa şərəf gətirdi, böyük bir elin başını ucaltdı.**

## Bükülməyən bilək, əyilməyən vüqar

Anar 1991-ci il mayın 9-da Ağdam rayonunun Sarıcalı kəndində anadan olub. 2008-ci ildə doğma kəndində tam orta məktəbi bitirib. Elə həmin il Ağdam Dövlət Sosial-İqtisadi Kollecə daxil olub. Vətənpərvər ruhu ilə seçilən gəncin torpaq və yurd məhəbbəti onun ürəyinə hakim kəsilib, erməni işğalının acı nəticələri həmişə Anarı incidib, başqa həmyaşıdları kimi, qisas gününü gözləyib. 2010-cu ildə Anar həqiqi hərbi xidmətə çağırılıb. Əsgərlik illərində hərbi vərdişlərə yiyələnib, komandirlərin hərbi təlimlərdə verdiyi tapşırıqları layiqincə yerinə yetirib. Ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirib.

Anar Yusifov Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb. Ermənistanın işğalı altında olan torpaqların azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında şücaət və qoçaqlıq nümayiş etdirib. Döyüş yolu düşmənə ağır zərbələr vurmaqla keçib, şiddətli savaşda Anar həmişə ön cərgədə döyüşüb. 2020-ci il oktyabrın 31-də Qubadlı istiqamətində gedən qanlı döyüşlərdə Anar həlak olub. Vətən sevgisi ilə döyünən ürəyi dayanıb. Şəhid Anar Yusifov Quzanlı qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunub.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə milli ordumuzun əsgəri Anar Yusifov ölümündən sonra "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.




Qəhrəmanlıq, şücaət göstərmək, düşməndən qisas almaq gənclərimizin ən müqəddəs amalı olub. Bükülməz biləyi, əyilməz başı ilə Azərbaycan əsgərləri Vətən müharibəsində göstərdikləri igidliklə hərb tariximizin ən şərəfli səhifəsini yazıblar. Şəhidlərin adı və qəhrəmanlığı nə qədər zaman keçsə də unudulmayacaq, həmişə ehtiramla xatırlanacaq.

**Salman ALIOĞLU.**
**"Respublika".**